AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*İctimai və humanitar elmlər seriyası, 2017, № 1*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия общественных и гуманитарных наук, 2017, № 1*

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
*The series of social sciences and humanities, 2017, № 1*

**ZEYNƏB QULİYEVA**
AMEA Naxçıvan Bölməsi
E-mail: zeyneb_guliyeva@yahoo.com

# NAXÇIVANIN QƏDİM MÜDAFİƏ TİKİLİLƏRİ QALATİKMƏ MƏDƏNİYYƏTİNİN ƏSASI KİMİ

*Məqalədə Naxçıvanın qədim müdafiə tikililəri tədqiq edilmişdir. Tədqiqatlar göstərir ki, ilkin müdafiə tikililəri hələ Neolit dövründən formalaşmağa başlamışdır. I Kültəpədən aşkar olunmuş qədim arxitektura qalıqları bu fikri təsdiq edir. Yaşayış yerində ilk arxeoloji qazıntılar görkəmli arxeoloq O.Həbibullayevin rəhbərliyi altında 1951-1964-cü illərdə aparılmışdır. 2013-2015-ci illərdə abidə V.Baxşəliyev və K.Maronun rəhbərliyi ilə yenidən tədqiqata cəlb edilmişdir. Bu qazıntılar nəticəsində abidədən aşkar edilən arxeoloji materiallar Son Neolit dövrünü əks etdirir (e.ə. 6070-5000). Burada yaşayış yerlərini əhatə edən ümumi mühafizə divarının qalıqları, həmçinin təsərrüfat çuxurları, müxtəlif təyinatlı ocaq yerləri və iş yerləri qeydə alınmışdır. Müdafiə xarakterli divarlar Şomutəpə, Xatunarx, İsmayılbəytəpə, eyni zamanda Anadoludakı Çayönü, Kuruçay kimi sinxron abidələrdən də aşkar edilmişdir. Bu faktlar həmin regionlarda, o cümlədən Naxçıvanda müdafiə qurğularının tikilməsi ənənəsinin son neolit dövründən başlayıb son dövrlərədək davam etdiyini təsdiq edir.*

**Açar sözlər:** *Neolit, Naxçıvan, I Kültəpə, müdafiə tikililəri, qalatikmə mədəniyyəti.*

Xarici hücumlardan, təbiət hadisələrindən qorunmaq və həyatda qalmaq uğrunda mübarizə hələ qədim dövrlərdən insanları müdafiə tədbirləri görməyə vadar etmişdir. Bu proses 3 inkişaf mərhələsindən keçmişdir: təbii mağaralar, yaşayış yerlərini əhatə edən ilkin müdafiə divarları və qalalar. Birinci mərhələnin əsas atributu olan mağaralara uzaq daş dövrü insanlarının məskunlaşdığı bütün ərazilərdə rast gəlinir. Azərbaycanın müxtəlif bölgələrində qeydə alınan Damcılı, Daşsalahlı, Buzeyir, Zar, Tağlar, o cümlədən Naxçıvandakı Qazma mağarası paleolit dövründə yaşamış insanların vəhşi heyvanlardan və digər təhlükələrdən qorunmasını təmin etmişdir. Lakin tədricən təbii təhlükələrə əlavə olunan yadelli hücumları, yaxud qəbilələrarası savaşların fonunda mağaraların qoruyuculuq funksiyasının yetərsiz qalması insanları təbiətin asılılığından xilas olmağa və təhlükəsizliyini təmin etmək üçün daha etibarlı tikililərin-qalaların tikilməsinə vadar etmişdir. Beləliklə, insan təbiətin yaratdığı sığınacaqlardan özünün yaratdığı yeni, daha təkmil müdafiə qurğularına üz tutmuşdur ki, bu da ilkin qalatikmə mədəniyyətinin əsasını qoymuşdur. Lakin təbii mağaralardan qalatikmə mədəniyyətinə keçid birdənbirə baş verməmişdir. Birincidən ikinciyə keçid yaşayış yerlərinin ətrafına çəkilən ilkin müdafiə divarlarının tədricən təkmilləşdirilməsi sayəsində reallaşdırılmışdır. Bu tipli tikililərin ilk nümunələri insanların təbiətin asılılığından xilas olduğu Neolit dövrünə təsadüf edir. Məlum olduğu kimi, insanın təbiətin asılılığından çıxmasını təmin edən istehsal təsərrüfatının formalaşması Neolit dövründə baş vermişdir. Beləliklə, Daş dövrünün final mərhələsində müstəqil məşğuliyyət sahələrinin yaranması, insanların oturaq həyata keçməsi ilə birlikdə onları əhatə edən ilkin müdafiə divarları da meydana çıxmışdır. İlk vaxtlar ümumu mühafizə divarı, yaxud istinad divarları kimi tikilən belə ti-

kili qalıqlarına Azərbaycanın Neolit abidələrindən İsmayılbəytəpə [2], Şomutəpə [3], I Kültəpə [7], Anadolunun Çayönü [9], Kuruçay [10] kimi yaşayış yerlərində rast gəlinir. Ön Asiya regionunu Cənubi Qafqazla birləşdirən Naxçıvan ərazisi də bu baxımından qonşu regionlardan geri qalmamışdır. Burada yaşamış insanların müdafiə sığınacaqları Qazma, Kilit, Əshabül-Kəhf və digər mağaralardan başlayaraq Qızqala, Çalxanqala, Oğlanqala, Fərhadqala, Əlincəqala və onlarla möhtəşəm müdafiə tikililərini özündə birləşdirən qalatikmə memarlığınadək yol keçmişdir. Tədqiqatlar göstərir ki, bu proses uzun bir zaman kontekstində və tədrici inkişafın nəticəsində mümkün olmuşdur. Başqa sözlə deyilsə, bu iki mərhələni bağlayan bir körpü olmuşdur ki, bu da Naxçıvan-çay, Arpaçay vadilərində salınmış abidələrdən üzə çıxarılan ilkin müdafiə divarlarıdır. Naxçıvanda bu tip tikililərin ən qədim nümunələri hələlik Neolit və Eneolit dövrünə aid yaşayış yerlərində izlənilməkdədir. I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi kimi Neolit-Eneolit abidələrindən, həmçinin Qızqalalar, Oğlanqala, Sədərək qalası kimi Tunc və Dəmir dövrü abidələrindən aşkar edilən qədim divar qalıqları Naxçıvanda qalatikmə mədəniyyətinin formalaşma prosesini sistemli şəkildə izləməyə imkan verir.

**Neolit və Eneolit abidələrindən aşkar edilmiş divar qalıqları**

Tədqiqatlar göstərir ki, Naxçıvan ərazisində yaşamış qədim tayfalar yaşadıqları məkanların ümumi müdafiə divarları ilə çevrələnməsi ənənəsinə hələ Neolit-Eneolit dövrlərindən yiyələnmişlər. Bunu Naxçıvançay və Arpaçay vadilərindəki qədim yaşayış yerlərindən aşkar edilmiş divar qalıqlarının timsalında izləmək mümkündür.

Naxçıvançay vadisində bu tipli divarların üzə çıxarıldığı ən qədim abidə I Kültəpədir. Naxçıvan şəhərinin 8 km şərqində yerləşən bu abidə hələ ötən əsrin 50-ci illərində O.Həbibullayev tərəfindən qeydə alınmışdır [11, s. 9]. 1951-1964-cü illərdə burada aparılan arxeoloji qazıntılar zamanı Eneolit, Tunc və Erkən Dəmir dövrlərinə aid xeyli miqdarda keramika, daş, obsidian və müxtəlif heyvan sümüklərindən hazırlanmış alətlər, həmçinin bəzəklər və müxtəlif heyvan fiqurları ilə bərabər qədim memarlıq qalıqları da üzə çıxarılmışdır [1, s. 24]. Lakin bu dövrün tapıntılarının azlıq təşkil etməsi, eyni zamanda arxeoloji materialların çoxluğu ilə diqqəti cəlb edən eneolit dövrünün daha geniş araşdırılması fonunda arxa planda qaldığından az öyrənilmişdir. Naxçıvanda Neolit mədəniyyətinin yayılma arealı və Eneolit mədəniyyəti ilə bağlılığı məsələlərinin araşdırılması zərurəti burada tədqiqatların davam etdirilməsini aktuallaşdırmışdır. Beləliklə, XXI əsrin ikinci onilliyində I Kültəpə yenidən tədqiqata cəlb edilmiş və nəticədə Son Neolit dövrünə aid xeyli miqdarda maddi-mədəniyyət nümunələri, o cümlədən tikililər və onları çevrələyən ümumi mühafizə divarının qalıqları üzə çıxarılmışdır. Görünür ümumi divar bütün yaşayış sahəsini əhatə etmişdir (şəkil 1).




**Şəkil 1.** 2014-cü ildə I Kültəpənin D sahəsindən aşkar edilən qədim tikili qalıqları və onları çevrələyən mühafizə divarının planı.

2014-cü ildə yaşayış yerinin yeni qazıntı sahələrindən (A, B, D) götürülən kömür analizlərinin nəticəsi 6100-5400-cü illəri göstərmişdir ki, bu da Neolitin final mərhələsini əks etdirir. Bu fakt yaşayış yerinin timsalında Naxçıvan bölgəsində aşkar edilmiş ilk tikili qalıqlarının, həmçinin mühafizə divarlarının Neolit dövrünə aid olması fikrinə heç bir şübhə yeri qoymur.

2014-2015-ci illərdə I Kültəpədən aşkar edilən divar qalıqları Naxçıvanın Son Neolit dövrü arxitekturası üçün dairəvi tikililərin xarakterik olduğunu və yaşayış sahələrinin ümumi mühafizə divarı ilə çevrələndiyini göstərir. Bu cür divar qalıqlarından biri D sahəsində aşkar edilmişdir (şəkil 2).



**Şəkil 2.** Mühafizə divarının D kvadratına aid hissəsinin ümumi görünüşü (2014).

Divar 3 tikinti mərhələsində istifadə edilmişdir (alt səviyyə: 948.68-948.32). Birinci mərhələdə (948.69-948.44) bu divara birləşməklə cənub-şərq istiqamətində uzanan düz divar (D-17), dəyirmi formalı daş alətlər toplusunun üzə çıxarıldığı iş yeri (D-21), müxtəlif ölçülü ocaq yerləri (D-11, D-13, D-16), onların içərisində isə keramika, obsidian və sümük qalıqları qeydə alınmışdır. 2014-cü ildə bu divarın salamat qalmış hissəsi yalnız kvadratın cənub hissəsində qeydə alınmışdır. İkinci mərhələdə (948.59-948.40) ümumi divarın interyerində ona birləşik olan 2 düz divar qalığı (31, 38), silindrik formalı iki təbəqənin üst-üstə qoyulması yolu ilə tikilmiş təndir (D-49), həmçinin ocaq yerləri (D-18; 24; 51) və xeyli miqdarda keramika hissələri aşkar edilmişdir. Bu dövrün keramika məmulatı özünəməxsus forma və ornamentasiyası ilə diqqət çəkir (şəkil 3).



**Şəkil 3.** I Kültəpənin Son Neolit dövrünə aid tikinti qatından aşkar edilmiş keramika nümunələri (2014-2015).

Bu tipli ikinci divar qalığı 2015-ci il qazıntıları zamanı E sahəsində aşkar edilmişdir. Onun sağlam qalmış hissəsinin eni 65-70 sm, uzunluğu isə 4 metrə yaxındır. Divar çiy kərpicdən tikilərək möhrə ilə bərkidilmişdir. Kərpiclər divarın uzunluğuna şaquli istiqamətdən düzülmüşdür (şəkil 4).



**Şəkil 4.** E kvadratından aşkar edilən ümumi divar qalığı (2015).

Vaxtı ilə O.Həbibullayev tərəfindən I Kültəpədə üzə çıxarılan tikili qalıqlarında da kərpiclərin bu cür düzülüşünə rastlanmışdır. Müəllif kərpiclərin üfüqi düzüldüyünü, bəzən də divarın möhkəmliyini artırmaq üçün şaquli arakəsmələr yaradıldığını qeyd etmişdir [12, s. 35]. Bu divar birinci tikinti mərhələsində üzə çıxarılsa da sonrakı mərhələlərdə də istifadə edilmişdir. Onun interyer hissəsində aşkar edilən bir-birini əvəz etmiş müxtəlif tikili qalıqlarının fonunda divarın uzun müddətli istifadə olunduğunu izləmək mümkündür.

2015-ci ildə D kvadratının qərbə tərəf 1 m genişləndirilməsi nəticəsində ümumi divarın bu istiqamətdə davam etmiş hissəsi də aşkar edilmişdir [7, s. 194]. Divarın şərq hissəsinin qalıqları isə F sahəsində qeydə alınmışdır. Bu sahədən üzə çıxarılmış tikili qalıqları D sahəsinin tikili qalıqları ilə birlikdə ümumi dairəvi plan yaradır. Bu planın əsas hissəsi olan ümumi mühafizə divarının diametri təqribən 10 metrə çatır. Onun cənub-qərb və cənub-şərq istiqamətində çevrələdiyi ovalvarı evlər, yardımçı təsərrüfat kompleksləri, müxtəlif funksiya daşıyan ocaqlar və bir-neçə iş yerindən ibarət olan primitiv emalatxana sahələrinin timsalında Naxçıvanda yaşamış Son Neolit dövrü tayfaları tərəfindən yaradılmış maraqlı bir arxitektura quruluşu ortaya çıxır. Bu plana əsasən ilkin müdafiə məqsədi daşıyan ümumi divarlar Neolit dövrünün yuvarlaq formalı evlərini çevrələmiş, yaxud onları bir-biri ilə birləşdirməklə yaşayış məkanı və iş sahələrini xarici təsirlərdən qorumaq missiyasını yerinə yetirmişdir (şəkil 5).



**Şəkil 5.** I Kültəpənin Son Neolit dövrünə aid arxitektura quruluşu (2015).

Görünür ki, evlərin özü də ümumi divarın tərkib hissəsi funksiyasını daşımaqla zəncirvarı plan yaratmışdır (şəkil 7). Evlərin bu cür zəncirvarı şəkildə ümumi divarlar vasitəsi ilə bir-biri ilə birləşdirilməsindən alınan ovalvarı planlı tikilinin ortasında iş sahələri, ocaqlar, həmçinin iri ölçülü daş alət kompleksləri qeydə alınmışdır. Bu cür zəncirvarı planlı tikili qalıqlarına Azərbaycanın digər bölgələrindəki həmdövr abidələrdən Şomutəpə [13, рис. 2], Hacı Ələmxanlı təpə [15, fig. 4], habelə Xatunarx [8, fig. 2,2] və Aruxlo kimi Cənubi Qafqaz abidələrində də rastlanmışdır. Azərbaycanın qərb hissəsində (indiki Ermənistanda) yerləşən Aknaşen-Xatunarx yaşayış yeri bir çox cəhətdən I Kültəpə materialları ilə üst-üstə düşür: bir-birinə birləşik zəncirvarı tikililər, çay daşları döşənmiş yarımdairəvi və oval ocaq yerləri, evlərin içərisində qeydə alınan bükülü skeletlər, həmçinin keramika demək olar ki, bir-birinin eynisidir [8, fig. 4, 1-2; fig. 9]. Gürcüstanın İmiris-Qora, Didi-Qora [13, abb. 27; abb. 65] və Aruxlo abidələrində də bi tip tikililərin qeydə alınması ərazi yaxınlığının, bu səbəbdən mədəni-iqtisadi cəhətdən eyni mədəniyyətin tərkib hissəsi olduqlarının əlamətlərindəndir [13, рис. 6, E, D, C, B].




**Şəkil 6.** Neolit dövrü yaşayış məskənlərini əhatə edən qədim divar qalıqlarının planı və onların rekonstruksiyası (1-I Kültəpə [7]; 2-3 Şomutəpə [3]).

Azərbaycanın digər Neolit abidələrində də bu cür mühafizə divarına rast gəlinir. Onlardan biri olan İsmayılbəytəpə yaşayış yerinin 2B və 2A kvadratlarında 2013-cü il qazıntıları zamanı aşkar edilən istinad divarının eni 1 metrdir. Tədqiqatçılar bu istinad divarının ilk mərhələdə yaşayış yerinin mühafizəsi funksiyasını yerinə yetirdiyini, sonrakı mərhələdə isə ona xaricdən divarlar əlavə edilərək ev halına salındığını qeyd edirlər [2, s. 18-20].

Yaşayış yerləri və iş sahələrini çevrələyən bu tip ümumi divarlara Şərqi Anadolunun Çayönü abidəsində də rast gəlinmişdir. Abidənin VII təbəqəsinin qərbində aşkar edilən 9 "ızqara planlı" (uzunsov dəhliz formalı) divardan ibarət olan tikili qalığının düz formalı ümumi divarla çevrələnməsi [9, s. 51] Neolit dövrü yaşayış yerlərinin ümumi mühafizə divarları ilə əhatə edilməsi ənənəsinin Şərqi Anadoluda da mövcud olmasından xəbər verir. Burada rast gəlinən tikinti texnikası Eneolit abidələrində də izlənilməkdədir. Belə ki, Anadolunun çoxtəbəqəli abidələrindən biri olan Kuruçayın Erkən Eneolit dövrünə aid VII təbəqəsindən aşkar edilən memarlıq qalıqları, qədim tikinti texnikası və ənənələrinin böyük bir qisminin davam etdirildiyini göstərməkdədir. Divar təməllərinin 1 metr qalınlığında və bir cərgə daşdan olması, həmçinin bəzi təməllərin tək sıra daş qalınlığında tikilməsi də eyni şəkildə Son Neolitə məxsus tikinti ənənəsinin dava-mıdır [10, s. 65-70].

Neolit dövrü arxitekturasının əsas elementlərinin Eneolit dövründə də davam etdirilməsi faktoruna Naxçıvan bölgəsində də rast gəlinir. Bunu Ovçulartəpəsinin Son Eneolit dövrünü əks etdirən, təqribən e.ə. 4200-4000-ci illərə aid tikinti texnikasında izləmək olar. Bu abidədə qeydə alınan ən erkən arxitektura ana torpaqda qazılaraq hər birinin döşəməsi yer səviyyəsindən 10-20 sm aşağıda yerləşən kiçik, düzbucaqlı yarımqazma evlər və bir-birinin üzərində, demək olar ki, eyni plan əsasında inşa olunmuş çoxotaqlı evlərlə xarakterizə olunur. Bu evləri arxa tərəfdən əhatə edən terras divarları (kvadrat 7) eyni zamanda bir-birini əvəz edən hər üç evin cənub divarı olmuşdur [6, 7]. Diqqəti cəlb edən mühüm xüsusiyyətlərdən biri buradakı evlərin də ümumi mühafizə divarı ilə əhatə edilməsidir [5, s. 28]. Bu faktor Naxçıvanda Son Neolit memarlıq ənənələrinin Eneolit dövründə də davam etdiyini göstərir. Bu proses I Kültəpənin Eneolit arxitekturasında da izlənilir. Yaşayış otağı, ərzaq anbarı və həyətyanı sahələrdən ibarət olan belə komplekslər arakəsmə, kərpic divarlarla bir-birindən ayrılmışdır. Bu tipli komplekslər sosial-iqtisadi inkişafda olan dəyişikliklər, o cümlədən qoşa nikah əsasında qurulmuş ailə ilə bağlıdır. Belə ailələr özünün mənzil, anbar və həyətyanı sahəsini ayırmaq labüdlüyünü doğurmuşdur [4, s. 82]. Bu cür həyət divarları sonrakı mərhələlərdə qəbilələr və tayfalararası savaşlara qarşı sipər kimi də əhəmiyyətli ola bilərdi. Bu isə

belə divarların tədricən daha da genişləndirilməsini və dayanıqlı olmasını zəruri edirdi. II Kültəpə yaşayış yerində üzə çıxarılan müdafiə divarının (eni 2), həmçinin Üzərliktəpə yaşayış yerini əhatə edən müdafiə divarının (2 m) timsalında bu təkmilləşməni izləmək mümkündür. Bu isə böyük zəhmət, əlavə xərc və mütəşəkkillik tələb etdiyindən çox güman ki, xüsusi imtiyaza malik şəxslərin nəzarəti altında görülmüşdür [4, s. 114], nəticədə isə II Kültəpə, Şahtaxtı, Sədərək kimi qala şəhərləri meydana çıxırdı. Memarlıq texnikası, böyüklük və etibarlılıq baxımından belə divarlar nə qədər fərqli olsalar da, yaşayış sahələrini çevrələməsi baxımından Neolit-Eneolit dövrünün ümumi mühafizə divarları ilə eyni məqsədə xidmət etmişdir.

Tədqiqatlar göstərir ki, qədim insanların müdafiə tədbirlərinin əsas atributlarından sayılan ilkin müdafiə divarlarının tikilməsindən qalatikmə mədəniyyətinə keçid prosesi nə qədər uzun bir zaman kontekstində həyata keçirilməsinə baxmayaraq, özünün ilkin rüşeymlərinin bəzi əlamətlərini qoruyub saxlamışdır. Tunc dövründən tikilməyə başlayan qalalar nə qədər təkmil və etibarlı olsa da forma baxımından Neolit və Eneolit dövrünün ümumi divarlarını xatırladırdı. Ümumi divarlar vasitəsi ilə bir-biri ilə əlaqələndirilən Neolit evləri sonrakı dövrlərdə öz yerini qala divarlarını birləşdirən bürclərə vermişdir.

## Nəticə

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda qalatikmə mədəniyyəti öz başlanğıcını qədim yaşayış məskənlərinin ətrafına çəkilən ilkin mühafizə divarlarından götürmüşdür.

Naxçıvan ərazisində yaşayış sahələrini əhatə edən ən qədim divar qalıqları I Kültəpə abidəsinin Son Neolit dövrü təbəqəsində qeydə alınmışdır. 2014-2015-ci illərdə burada aşkar edilən ümumi divar oval formalı olub evləri bir-biri ilə birləşdirən, həmçinin təsərrüfat çuxurları, müxtəlif məqsədli ocaqlar və iş yerlərini çevrələməklə zəncirvarı plan yaradır. Bu cür arxitektura planı Şomutəpə, Xatunarx kimi həmdövr abidələrdə də izlənilir. Azərbaycanın Qarabağ ekspedisiyası tərəfindən İsmayılbəytəpə yaşayış yerində 1 metr enində olan müdafiə divarının aşkar edilməsi, Anadoludakı Çayönü, Kuruçay, Hacılar və digər sinxron abidələrdə evləri əhatə edən ümumi divar qalıqlarına rast gəlinməsi ilkin müdafiə divarlarının hələ Neolit dövründən formalaşmağa başlamasının təzahürlərindəndir.

Arpaçay vadisində yerləşən Ovçulartəpəsi, I Kültəpənin Eneolit təbəqəsindən üzə çıxarılan evlərin bu tipli ümumi divarlarla əhatələnməsi, həmçinin II Kültəpə, Qız qala kimi qala şəhərləri əhatə edən müdafiə divarları Neolit dövrünün memarlıq ənənələrinin sonrakı dövrlərdə də davam etdirildiyini göstərir.

Naxçıvan ərazisində qeydə alınan II Kültəpə, Qız qala kimi qala şəhərləri çevrələyən müdafiə divarları etibarlılıq, böyüklük dərəcəsinə görə fərqlənsə də mahiyyət və forma baxımından I Kültəpənin Neolit və Eneolit tikililərini, o cümlədən Ovçulartəpəsinin çoxotaqlı evlərini çevrələyən ilkin mühafizə divarları ilə eyni məqsədə xidmət etmiş – yaşayış yerlərinin kənar təsirlərdən və hücumlardan təcrid olunması vəzifəsini yerinə yetirmişdir. Bütün bunlar isə Naxçıvanda qalatikmə mədəniyyətinin uzun bir zaman kontekstində formalaşmasını və əsasını Neolit memarlıq ənənələrindən götürdüyünü nümayiş etdirir.




**Şəkil 7.** I Kültəpənin I tikinti qatına aid ümumi divarların planı (2014-2016). D, E, F və İ kvadratlarından üzə çıxarılan.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Almәmmәdov X.İ. "Qarabağ Neolit-Eneolit ekspedisiyası"nın 2014-cü ildə apardığı arxeoloji tədqiqatlar. 18-20 / Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş Elmi sessiyanın materialları. Bakı, 2015, 188 s.
3. Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку: Наука, 2012, 386 с.
4. Azərbaycan tarixi: Yeddi cilddə. I c.: Ən qədimdən-b.e. III əsri, Bakı: Elm, 2007, 520 s.
5. Baxşəliyev V. Son Eneolit və Erkən Tunc dövrü mədəniyyətlərinin əlaqəsi (2012-ci il qazıntılarının hesabatı), s. 27-32.
6. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi (First Preliminary Report: the 2006-2008 seasons). Bakı: Elm, 2010, 154 s.

7. Baxşəliyev V., Quliyeva Z., Marro C., Berthon R. Kültəpə yaşayış yerində 2015-ci ildə aparılan arxeoloji araşdırmalar // AMEA-ın Xəbərləri. İctimai elmlər seriyası, 2016, № 1, s. 193-210.
8. Badalyan S. et al. The Settlement of Akhnashen-Khatunarkh. A Neolitic Site in the Ararat Plain (Armenia): Excavation Results 2004-2009 // TUBA-AR, 2010, № 13, p. 185-218.
9. Çambel H., Robert J., Bradwood J., Özdogan M., Schirmer W. 1986 Yılı Çayönü Kazısı // IX Kazı Sonuçları Toplantısı. Ankara, 1987, 6-10 Nisan, 392 s.
10. Duru R. Kuruçay Höyüğü Kazıları 1986 // IX Kazı Sonuçları Toplantısı. Ankara, 1987, 6-10 Nisan 392 s.
11. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959, 134 s.
12. Kikuradze T. Neolithische Siedlungen von Kvemo-Kartli, Georgien // Materialien zur Allgemeinen und Vergleichenden Archaologie, München, 1986, band 29, 118 s.
13. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва: Наука, 1975, 415 с.
14. Nishiakı Y., Guliyev F., Kadowakı S. Chronological Contexts of the Earliest Göytepe and Hacı Elamxanlı Tepe, Azerbaijan / American Journal of Archaeology, Boston, 2015, v. 119, № 3, s. 279-294.
15. Хансен С., Мирцхулава Г., Бастерт-Лаприз К. Transfer of knowledge and technology during the "First Globalization" of the VII-IV millennium BC / International Symposium, Baku, April 1-3, 2009. Deutsches Archaologisches Institut. Eurasien-Abteilung.

**Зейнеб Кулиева**

## ДРЕВНИЕ ОБОРОНИТЕЛЬНЫЕ СООРУЖЕНИЯ НАХЧЫВАНА КАК ОСНОВА КУЛЬТУРЫ СТРОИТЕЛЬСТВА КРЕПОСТИ

В статье исследованы древние оборонительные сооружения Нахчывана. Исследование показывает, что первичные оборонительные сооружения формировались еще в неолитическом периоде. Об этом свидетельствуют остатки древней архитектуры, обнаруженные в поселении Кюльтепе I. В этом поселении первые археологические раскопки начались в 1951-1964 гг. под руководством видного археолога О.Абибуллаева. В 2013-2015 гг. в этом поселении археологические исследования вновь были возобновлены под руководством В.Бахшалиева и К.Маро. Артефакты, обнаруженные в результате археологических раскопок, относятся к периоду позднего неолита (6070-5000 до н.э.). Здесь были зарегистрированы остатки стен, окружающих жилые дома, хозяйственные ямы, кострища разного назначения, в том числе и рабочие места. Стены оборонительного характера были обнаружены в таких синхронных памятниках неолита, как Шомутепе, Хатунарх, Исмаилбейтепе, в том числе и в Анатолии (Чаёню, Куручай). Эти факты доказывают, что в Нахчыване традиция строительства оборонительных сооружений появилась в период позднего неолита и продолжалась в последующие периоды. Таким образом, исследование показывает, что традиция строительства оборонительных стен формировалась с эпохи неолита.

**Ключевые слова:** *неолит, Нахчыван, Кюльтепе I, оборонительные сооружения, культура, строительство, крепость.*

**Zeynab Quliyeva**

## ANCIENT DEFENSIVE WALLS OF NAKHCHIVAN AS BASIS OF CULTURE FORTRESS CONSTRUCTION

In article are investigated ancient defensive walls of Nakhchivan. The research shows that first defensive walls were formed in the Neolithic period. The remains of ancient archi-tecture found on the settlement Kultepe I testify it. In this settlement the first archeological excavations began in 1951-1964 under the direction of the prominent archeologist O.Abibullayev. In 2013-2015, in this settlement archaeological researches were resumed again under direction V.Bakhshaliyev and C.Merro. The artifacts found as a result of archeological excavations belong to the period Late Neolithic Age (6070-5000 BC). Here the remains of walls surrounding houses, economic holes, campfires of different function including jobs were registered. Walls of defensive character were found in such synchronous monuments of the Neolithic period as to Shomutepe, Xa-tunarx, Ismayilbeytepe and in Anatolia (Chayonu, Kuruçay). These facts prove what, in Nakhchivan tradition of construction defensive architecture appeared in the period of Late Neolithic Age and proceeded during the subsequent periods. Thus research is shown that, the tradition of construction of defensive walls, began in the Neolithic Age.

**Key words:** *Neolithic Age, Nakhchivan, Kültepe I, defensive walls, culture, fortress, construction.*